*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 3-10*

# *DİLÇİLİK*

https://doi.org/10.62837/2024.6.3

**NADİR MƏMMƏDLİ**
*Filologiya elmləri doktoru, professor*
nurlan1959@gmail.com

## MORFOLOGİYA

**Morfologiya - dilçiliyin bölməsidir.** Morfologiya dilçiliyin bir bölməsi olub, dilin qrammatik sistemini öyrənir. Sistem dedikdə, qrammatik kateqoriyalarda birləşmiş bütün söz formalarının və nitq hissələrinin məcmusu dərk olunur. Morfologiyanın əsas anlayışları qrammatik məna, sözun qrammatik forması, sözdüzəldici, sözdəyişdirici paradiqma, formalaşma, qrammatik kateqoriya, nitq hissələridir. Dilin morfoloji sistemi qrammatik kateqoriyalara və nitq hissələrinə birləşdirilmiş bütün söz formalarının məcmusu kimi başa düşülür.

**Morfologiya** qrammatikanın bir hissəsidir. Qrammatika termini dilçilikdə iki mənada işlənir: dilin qrammatik quruluşu və sözün qrammatik təbiəti. Qrammatika sözlərin dəyişdirilməsi və cümlədə birləşməsi qaydalarını öyrənir, ona görə də iki hissəyə bölünür: morfologiya və sintaksis.

Morfologiyanın da tədqiqat obyekti sözdür, leksikologiyada sözlərin leksik mənası, mənşəyi, morfologiya və sintaksisdə qrammatik xüsusiyyətləri öyrənilir. Məsələn, *lak* "parıltı vermək, həmçinin korlanmaqdan qorumaq üçün əşyanın üzərinə çəkilən spirtdə, yağda həll olunmuş qətran" mənası verən italyan mənşəli sözdür, morfologiya üçün isə onun hansı nitq hissəsinə mənsub olması lazımdır. Morfologiyanın vəzifəsi ümumi qrammatik mənaları, söz formalarını öyrənmək və ifadə etməklə məhdudlaşır. Morfologiya dilçiliyin nitq hissələrini, qrammatik məna və ifadə formalarını, kateqoriyaları öyrənən bir sahəsidir.

Dilin quruluşu hər birinin sistemi olan səviyyələrdən ibarətdir. Morfoloji səviyyə minimum vahidlə – qrammatik mənanın daşıyıcısı kimi çıxış edən söz forması ilə xarakterizə olunur. Morfoloji minimum söz forması, dilin daxili quruluşunun səviyyəsi, müəyyən bir qrammatik mənanın daşıyıcısıdır. Morfologiya sözləri qrammatik forma və funksiyalarında, söz dəyişdirmə qaydalarını öyrənir, müəyyən bir qrammatik kateqoriyanı təşkil edən əlaqəli qrammatik mənalar dairəsini müəyyənləşdirir. Qrammatik mənalar müəyyən dil vasitələri, qrammatik forma ilə ifadə olunur. Morfologiyaya nitq hissələrinin doktrinası – ən böyük qrammatik söz sinifləri daxildir, mövzusu sözlərin qrammatik sinifləridir (nitq hissələri, onların qrammatik kateqoriyaları, söz formaları sistemləri və onların dəyişdirilməsi qaydaları və s. (1).

**Morfologiyanin predmeti**. Sintaksis baxımdan qrammatik məna formaları söz birləşməsi və cümlə ilə ifadə olunursa, morfologiyanın predmeti konkret sözlərin müxtəlif formalarıdır; sözlərin qrammatik forma və funksiyalarını, sözdəyişmə qaydalarını, müəyyən qrammatik kateqoriyanı təşkil edən əlaqəli qrammatik məna dairəsini təyin edir.

Morfologiyanın predmetinə həmçinin nitq hissələrinin – sözlərin ən böyük qrammatik siniflərinin, onların qrammatik ksteqoriyaları, söz formaları sistemi və dəyişdirilmə qaydalarının öyrənilməsi daxildir.

**Morfologiya dilin daxili quruluş səviyyəsidir.** Quruluş dedikdə, eynicinsli (homogen) elementləri, dil ünsürlərinin birliyi və ya tamlığı başa düşülür. Dilin strukturu hər biri xüsusi minimal vahidlər sisteminə malik olan səviyyələrdən, pillə və mərhələlərdən təşkil olunub. Səslər sistemi – (fonemlər) fonetik səviyyə, morfemlər – morfematik səviyyə, qrammatik məna, söz sistemi – leksik, cümlə sistemi – sintaktik səviyyəni bildirir.

Dilin ən kiçik vahidləri daha yüksək səviyyə vahidlərində realizə olunur: səs – fonemdə, morfemlər – leksemlərdə, yaxud söz formalarında, söz və söz forması – cümlələrdə. Dilin morfoloji səviyyəsi qrammatik məna daşıyıcısı kimi çıxış edən minimal vahidlər – söz forması ilə xarakterizə olunur. Məsələn *qapı* sözu qrammatik mənasına görə ismin adlıq halında, kəmiyyətcə təkdədir. Burada söz məna göstəricisi kimi çıxiş edir. Eyni paradiqm daxilində bu söz formasını digəri ilə dəyişdikdə başqa məna verir: *qaapıçı* (şəxs bildirir, adlıq haldadır). Sözün konkret mənası formsının tərkibində olur, ondan kənarda fleksiya sözun qrammatik mənasının göstəricisidir (məsələn, şəkilçi, vurğu, fonem növbələşməsi və s.). Söz forması konkret məna dsşıyıcısıdır, dilin daxili quruluşunun morfoloji səviyyədə minimal vahididir.

**Sözun qrammatik mənası və forması**. Sözun qrsmmatik mənası onun leksik mənası ilə əlaqəlidir. Əgər leksik məna sözün səs qabığını reallıqla (obyekt, hadisə, əlamət, hərəkət və s.) əlaqələndirirsə, qrammatik məna sözün konkret formasını əmələ gətirir. Sözün leksik mənası xüsusi və ümumi, qrammatik mənası isə mücərrəd və ümumiləşmiş olur (2, 41). Leksik məna sözun səs örtüyü ilə müvafiq reallıq, qrammatik məna isə, ilk növbədə, mətndə digər sözlərlə əlaqə yaratmaq üçün lazımi formadır. Sözun leksik mənası konkret və özünəməxsus, qrammatik mənası isə ümumiləşdirilmiş xarakter daşıyır. Məsələn, *ev, quş, ağac* sözləri müxtəlif əşya, canlı və fərqli leksik məna daşısa da, eyni qrammatik məna (əsya, adlıq hal, kəmiyyətcə tək, ümumi) daşıyan söz kateqoriyasına aiddir. Leksik mənanın əsas göstəricisi sözün kökü, qrammatik mənanınkı isə şəkilçi, vurğu, fonemlərin növbələşməsi, köməkçi sözlər və s. Konkret bir söz forması bir neçə qrammatik məna dasıya bilir. Məsələn, *adam* sözü adlıq halda, təkdədir, *yazıram* I şəxsin təkində, qeyri-müəyyənlik bildirir, indiki zamandadır. Qrammatik məna ümumi və xüsusi olur. Ümumi qrammatik məna ən böyük qrammatik söz sinfini – nitq hissələrini (isimlərdə əşyanı, sifətlərdə əşyanın keyfiyyətini, feillərdə hərəkəti) xarakterizə edir. Xüsusi qrammatik məna sözlərin ayrı-ayrı formalarına (kəniyyət, hal, şəxs və zaman) xasdır. Ümumi

qrammatik məna bir sıra xüsusi qrammatik mənalar (cümlədə sözlərin sintaktik mənası nəzərə alınmaqla) məcmusundan ibarətdir, sözün leksik və qrammatik mənalarını vahid bir bütövdə birləşdirir. Cümlədə əsas sintaktik mövqeyinə görə isim – mübtədanın (bütün isimlər cümlədə mübtəda yerində işlınə bilir), sifət təyinin, feil xəbərin, zərf zərfliyin baş üzvləridirlər. Məsələn, əşyanın adını bildirən isim xüsusi qrammatik mənalardan (hal, kəmiyyət) təşkil olunur, lakin bu mənaların daşıyıcısı söz fornasıdır. Başqa sözlə, digər sözlərdən kəmiyyət, hal kateqoriyasına görə asılı olmayıb, cümlədə mübtəda qismində iştirak edən söz əşyanın adını bildirir, isim kayeqoriyasına aiddir. Söz səviyyəsində qrammatik məna daşıyıcıları söz formasıdır – bir sözün bütün söz formasının məcmusu paradiqma adlanır.

Söz paradiqması qrammatik xüsusiyyətlərinə uyğun bir və ya bir neçə söz formasından ibarət ola bilər. Sözün bir və ya bir neçə söz formasından ibarət paradiqma əmələ gətirməsi sözdəyismə adlanır. Müasir Azərbaycan dilində sözdəyişmə sistemi aşağıdakı qaydada işləkdir: hal kateqoriyasına, mənsubiyyətə, şəxsə, zamana və kəmiyyətə görə. Sözlər xüsusi və söz formalar şəklində paradiqmada birləşə bilər.

**Qrammatik mənanın ifadə vasitələri.** Qrammatik məna, söz formanın quruluşunda olduğu kimi, morfoloji xüsusiyyətlər, forma yaradan sonşəkilçilər, vurğu, fonemlərin növbələşməsi, köməkçi sözlər vasitəsilə ifadəsini tapır. Qrammatik mənanın ilk ifadə üsulu sintetik, ikincisi analitik adlanır. Məsələn, feilin gələcək zamanı şəxs sonluğunun köməyi ilə sintetik və feili baglamanın köməyi ilə analitik üsulla ifadə olunur. Hər bir nitq hissəsinin özünəməxsus qrammatik xüsusiyyələri olduğu üçün söz formaları da həmin nitq hissələri ilə müəyyən olunur.

Müasir Azərbaycan dilində bir qrammatik mənanın həm sintetik, həm də analitik üsulla ifadə olunmasına rast gəlinir (məsələn, *güclü* sifətinin adı və şiddətləndirmə formasında: *çox güclü*). Bəzən qrammatik məna subyektiv üsulla – müxtəlif kökdən olan söz formaları ilə ifadə olunur: *balacalar – uşaqlar, almaq – götürmək*. Bir sözun paradiqması sinkretik, analitik və suppletiv söz formalarını birləşdirə bilər. Sözün qrammatik mənası çox vaxt eyni zamanda morfoloji və sintaktik yolla ifadə olunur, bəzən cümlədə qrammatik mənanın ifadə vasitəsi qismində məntiqi-semantik əlaqə cıxış edir. Məsələn: *Qışı yaz əvəz edir* – cümləsində *yaz* subyektiv və adlıq haldadır, *qış* isə obyektdir, təsirlik haldadır.

**Qrammatik kateqoriya anlsyışı.** Qrammatik məna tək deyil, daim digər qrammatik mənalarla qarşılıqlı əlaqədə olur. Məsələn, kəmiyyətcə tək və cəm, zamanla əlaqəlidir. Hər bir mənanın öz ifadə – söz forması var. İsmin mənaca tək forması olduğu kimi, cəm məna dasıyıcıları *-lar, -lər* şəkilçisi ilə işlənir.

Qrammatik kateqoriya hər birinin öz ifadəsi olan iki və ya daha çox əlaqəli qrammatik məna sistemindən təşkil olunur. Qrammatik mənaları bir birindın ayıran məzmun-kriteriyası anlayışı var. Məsələn, feilin zaman kateqoriyasının qrammatik mənası "hərəkət və zaman münasibəti" anlayışı ilə izah olunur. Nəql olunan zaman icra olunan hətəkət indiki zamanı, nəql olunan zamandan əvvəl icra olunan keçmiş, nəql olunandan sonra isə gələcək zamanı bildirir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 3-10*

Keçmiş zaman: *yazdım* – nəql olunan zamandan əvvəl;
İndiki zaman: *yzıram* – nəql olunan zaman;
Gələcək zaman: *yazaram* – nəql olunandan sonra.

İki qrammatik kateqoriya var: sözdəyişdirici və sözdüzəldici. Əgər qrammatik məna eyni söz forması ilə ifadə olunarsa, sözdəyisdirici kateqoriya adlanır. Məsələn, ismin mənaca tək və cəm halı eyni söz kökü ilə ifadə olunur: *kitab – kitablar*. Qrammatik məna müxtəlif sözlərlə ifadə olunursa, sözdüzəldici (leksik-qrammatik) kateqoriya adlanır. Sözdüzəldici kateqoriyaya ümuni və xüsusi isimlər, sözdəyişdirici kateqoriyaya əlamət, kəmiyyət, hal, dərəcə və növ kateqoriyası aiddir. Sözdəyişdirici kateqoriyalar bir sözün müxtəlif formalarının qarşılaşdırılması ilə ifadə olunur.

Qrammatik formalarla ifadə olunan qrammatik mənalar qrammatik kateqoriyanın mahiyyətini təşkil edən oppozisiya yaradır. Beləliklə, kəmiyyətcə tək olan cəmə, məlum növ məchul növə qarşı qoyulur və s.

Qrammatik kateqoriyalar, əsasən, nutq hissələrinin spesifikasını təyin edir. Məsələn, isim və sifətləri müqayisə edək. İsimlərdə kateqoriyalar müstəqil oldugu halda, sifətlər aid olduğu müvafiq sözlərdən asılıdır (*dəmir yumruq, güclü külək* və s.). Eyni qrammatik kateqoriya müxtəlif nitq hissəlırində sözdəyişdirici və sözdüzəldici ola bilər.

**Morfologiya – yeni söz formalarının yaranma prosesi.** Morfologiya leksik və söz yaradıcılığı sistemləri ilə müqyisədə durğundur, kənar təsirlərə son dərəcə mühafizəkar və sabitdir. Dilin bügünkü inkişaf mərhələsində (sinxron) Azərbaycan dilinin morfologiyası tarixi proseslərin nəticələrinə əsaslanaraq, söz formaları sistemindəki dəyişikliklərə az meyillidir. Bu dəyişikliklər forma variantlarının istifadə dairəsinin azalması ilə əlaqədar olub, dilin morfoloji sistemində sabitlik yaradıb. Bu proses ədəbi dil ilə yanaşı, danışıq dilində də nəzərə çarpır. Məsələn, Azərbaycan dilində isim yüz il ərzində 6 halını qoruyub saxlaya bilmişdir (ötən əsrin qısa bir zamanında *birgəlik* halının olması ilə müqayisədə).

**Morfologiyanın digər dissiplinar dilçilik əlaqələri.** Morfologiya sintaksislə sıx, leksikologiya, söz yaradıcılığı ilə müəyyən dərəcədə əlaqəli müstəqil bir elm sahəsidir. Hər hansı bir nitq hissəsinin ümumi qrammatik mənası söz formalarının xüsusi qrammatik mənaları (say, hal, mənsubiyyət və s.) və cümlədəki digər söz formaları ilə sintaktik əlaqəsindən (uzlaşma, idarə, yanaşma) təşkil olunmuşdur. *Çalışqan tələbə dərslərini oxuyur* – cümləsində tələbə söz forması qrammatik cəhətdən digər söz formalarından asılı deyil, kəmiyyətcə təkdir, onu təyin edən *çalışqan* söz forması ilə yanaşma əlaqəsində olduğu üçün eyni hal, kəmiyyət bildirir. *Tələbə* söz forması ümumi qrammatik məna daşıyan müstəqil nitq hissələrindən biri kimi ismin xüsusiyyətlərinə xas olub, predmet bildirir, uzlaşan *çalışqan* söz forması da ümumi qrammatik mənada sifət kimi "əşyanın əlamətini" bildirir. Cümlədə isim mübtəda yerində işlənir, sifətin cümlə üzvü kimi funksiyası təyindir. Bu mənada nitq hissəsinin cümlə üzvü ilə uyğunluğuna əsasən bütün ifadəni təhlil etmək olar.

**Morfologiyanın fonetika, leksika və sintaksis ilə əlaqəsi.** Sözün qrammatik xüsusiyyətləri dedikdə təsnifləndiyi nitq hissəsinin tərkibcə sabit yaxud qeyri-sabit olması və qrammatik mənası nəzərdə tutulur. Morfologiyada nitq hissələri sözlərin qrammatik sinifləri kimi öyrənilməklə yanaşı, bu siniflərə aid morfoloji kateqoriya və formalardan bəhs olunur.

Morfologiyanın vəzifəsi söz, söz forması ( və ya sözün qrammatik forması), paradiqma anlayışlarını, qrammatik məna, forma, kateqoriya, nitq hissəsi, aid olduğu nitq hissələrinin təyinatı üzrə leksik-qrammatik bölmələrin funksional işlənmə və mübadiləli keçidini təyin etməkdir.

Dilin əsas struktur vahidi olaraq söz dilçiliyin bütün sahələrinin tədqiqat obyektidir. Bu mənada fonetika sözü təşkil edən səsləri, leksikoqrafiya leksik mənanı (müəyyən anlayış, daxili məzmunu), morfemika sözün təşkil olunduğu mühüm hissələri, törəmə sözün əmələ gəlmə üsulunu, sintaksis sözün nitqdə başqa sözlərlə əlaqəsini, eləcə də daha böyük vahidlərin – söz birləşmələrinin və cümlənin əmələ gəlmə qaydasını öyrənir.

Morfologioya dilçilik elminin bütün sahələri ilə əlaqədardır. Bütün sözlər onları bir-birində ayırmağa imkan verən müəyyən fonetik qaydalara əsasən qurulur, vurğu da həmin funksiyanı daşıyır.

Morfologiya və leksikologiyanın tədqiqat obyekti sözdür. Morfologiya sözü qrammatik cəhətdən, leksikologiya isə leksik baxımdan öyrənir. Ümumi məna daşıyıcıları leksemlərdir. Leksem danışıq prosesində qrammatik cəhətdən bu və ya digər söz forması ilə əlaqədə işlənə biləcək söz forması kimi çıxış edir. Qrammatik qaydalara əsasən cümlə qurduqda, bütün kök morfemlərin mənası səs birləşmələri ilə əvəzlənir. Morfologiya ilə leksikologiya arasındakı əlaqə leksik və qrammatik məna daşıyan sözün nitq hissələri üzrə bölgüdə semantik xüsusiyyətlərin nəzərə alınmasıdır. Hər bir nitq hissəsinə məxsus sözyaratma üsul və vasitələri var. Adların əmələ gəlməsində şəkilçi, feillərin əmələ gəlməsində isə analitiklik üstünlük təşkil edir. Sintaksis sözləri (leksemlərin) və söz formalarını, həmçinin bu qaydalar ilə təşkil olunmuş sintaktik vahidlərini söz birləşmələri və cümlələrdən öyrənir. Dilin morfoloji sistemi leksik və sözdüzəltmə sistemlərindən fərqli olaraq son dərəcə sabitdir.

**Morfologiyanin əsas anlayişlari.** Morfologiyada söz leksik- semantik vahid kimi qəbul olunur. Mətndə sözün konkret istifadəsinə *söz forması* (analoji olaraq fonetikada səs, morfemikada morfem kimi) deyilir. Leksem eyni leksik mənaya malik olan konkret söz formasıdır, morfololi cəhətdən xarakterizə olunmasında *forma* termini işlədilir: *nominativ hal forması, gələcək zaman forması* və s.

Azərbaycan dilində söz formalar daha çox şəkilçilərin köməyi ilə düzəlir. Sintetik formalar: a)morfonoloji növbələşmələr (*yazmaq – yazıram, daşımaq-daşıyıram, aparmaq – aparıram, bəhs etmək – bəhs edirəm* və s.); b)vurğunun yerdəyişməsi (*qazma – qazma, alma – alma* və s.); c) suppletivizmlə – eyni sözün formalarının müxtəlif köklərdən düzəlməsi.

Sözün bütün formalarının nizamlı sırası morfoloji paradiqma adlanır. Bu termin "nümunə; sözdəyişmə sxemi" mənasında da işlənir. Məsələn, ismi paradiqmalar hallanma, sifətdə müqayisə dərəcələri, feildə şəxsə və kəmiyyətə, zamana görə dəyişmə və s. Tam paradiqma bütün sözdəyişdirici forma toplumuna malikdir. Bütün sözdəyişdirici forma toplumuna malik olmayan paradiqma natamam adlanır. İki müxtəlif söz, yaxud söz forma hallanma və ya mənsubiyyətə gərə dəyişdikdə eyni (ümumi) paradiqmada olur. Onlara kəsişən və ya çarpazlaşan paradiqma deyilir.

Qrammatik məna müntəzəm morfoloji ifadəyə malik eyni tipli söz formaların ümumiləşdirilmiş mücərrəd mənasıdır. Məsələn, *çalışmaq* feili konkret hərəkət bildirməklə yanaşı, haqqında danışılan hərəkətin bir şəxs deyil, bir neçə insan tərəfindən icra olunacağını , həm də tam şəkildə yerinə yetiriləcəyini bildirir.

Sözün leksik mənası konkret (*qələm, kompüter* və s.) və mücərrəd (*sevgi, xəyal* və s.) olduğu halda, qrammatik məna yalnız mücərrədlik bildirir. Qrammatik (morfoloji) məna bütün söz sinfinə aid olur və mücərrəd məna daşıyır, sözün leksik mənasından fəqlənir; bu, eynitip söz formalarının müntəzəm morfoloji mənaya malik ümumi ifadəsidir. Qrammatik məna sözün leksik mənasını müşayiət edir.

Qrammatik mənalar eyni olmur, morfologiyada qrammatik semantikanın iki növü var: *qrammatik* məna (ism üçün əşya adı, sifət üçün əlamət, feil üçün hərəkət və s.), morfoloji kateqoriyaya xas *ümumkateqorial* məna (tərzi-hərəkət kateqoriyası hərəkətin gerçəkliyə münasibəti, say kateqoriyası əşyanın kəmiyyətə görə münasibəti və s.). Bir-birinə zidd olub, bir morfoloji kateqoriyaya aid olan üzvlər kateqorik məna daşıyır: Məsələn, indikativ – hərəkətin reallığa meyli, imperativ – nəql edənin hərəkətə sövqemə meyli, hipotetik – hərəkətin fərz olunana, fərziyyəyə meyli.

Qrammatik mənalar müəyyən linqvistik vasitələrlə ifadə olunur, onlara qrammatik formalar deyilir və qrammatik formadan kənarda qrammatik məna yoxdur. Sözlərin formal şəkildə ifadə olunmuş qrammatik mənaları qrammatik (morfoloji) kateqoriyada ümumiləşdirilmiş məna kəsb edir. Qrammatik kateqoriya ən mücərrəd anlayış, ümumi qrammatik məzmuna malik olan təzadlı söz formaları sistemidir. Nominal kateqoriyaya say, hal, şəkil, cəhət, tərz, zaman, şəxs və s. aid edilir.

## Ədəbiyyat

1. Ətraflı bax: А.К.Карпов. Морфология современного русского языка. Нижневартовск: Изд-во Нижневарт. гос. ун-та, 2019.

2. Никольская, Татьяна Евгеньевна Ткаченко, Ольга Юрьевна Шитькова, Марина Мясумовна Н.Морфология современного русского языка: основы теории, упражнения, задания. Учебное пособие М.: Мир науки, 2023.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 3-10*

**Nadir Məmmədli**
Filologiya elmləri doktoru, professor

**MORFOLOGİYA**

**Xülasə**

Morfoloji minimum – söz forması, müəyyən bir qrammatik mənanın daşıyıcısıdır, sözləri qrammatik forma və funksiyalarında, dəyişmədə qaydalarını öyrənir. Müəyyən bir qrammatik kateqoriyanı təşkil edən əlaqəli mənalar dairəsini müəyyənləşdirir. Dil vasitələri, qrammatik forma ilə ifadə olunan morfologiya leksik və söz yaradıcılığı sistemləri ilə müqyisədə sabitdir, kənar təsirlərə son dərəcə mühafizəkardır. Azərbaycan dilinin morfologiyası tarixi proseslərin nəticələrinə əsaslanaraq, söz formaları sistemindəki dəyişikliklərə az meyilli olduğu üçün forma variantlarının istifadə imkanları azlıq təşkil edir, ona görə də dilin morfoloji sistemində durğunluq yaranır. Bu proses ədəbi dil ilə yanaşı, danışıq dilində də nəzərə çarpır.

Morfologiyayanın mövzusu sözlərin qrammatik sinifləridir, leksik və söz yaradıcılığı sistemləri ilə müqyisədə kənar təsirlərə son dərəcə mühafizəkardır. Dilin bügünkü inkişaf mərhələsində (sinxron) Azərbaycan dilinin morfologiyası tarixi proseslərin nəticələrinə əsaslanaraq, söz formaları sistemindəki dəyişikliklərə az meyillidir. Bu dəyişikliklər forma variantlarının istifadə dairəsinin azalması ilə əlaqədar olub, dilin morfoloji sistemində sabitlik yaradıb.

**Надир Мамедли**
Доктор филологических наук, профессор

**МОРФОЛОГИЯ**

**РЕЗЮМЕ**

Морфологический минимум – словоформа, является носителем определенного грамматического значения, изучает правила употребления слов в их грамматических формах и функциях, изменения. Он определяет круг взаимосвязанных значений, составляющих определенную грамматическую категорию. Морфология, выраженная языковыми средствами, грамматической формой, устойчива по сравнению с лексическими и словообразовательными системами, чрезвычайно консервативна к посторонним воздействиям. Поскольку морфология азербайджанского языка основана на результатах исторических процессов и менее подвержена изменениям в системе словоформ, возможности использования вариантов форм невелики, следовательно, в морфологической системе языка наблюдается застой. Этот процесс заметен как в литературном языке, так и в разговорной речи. Предметом морфологии являются грамматические классы слов, чрезвычайно консервативные к внешним воздействиям по отношению к лексическим и словообразовательным системам. На современном этапе развития языка

(синхронном) морфология азербайджанского языка менее подвержена изменениям в системе словоформ, основанным на результатах исторических процессов. Эти изменения были обусловлены уменьшением диапазона употребления формальных вариантов и создали стабильность в морфологической системе языка.

**Nadir Mammadli**
Prof. Dok.

**MORPHOLOGY**
**SUMMARY**

Morphological minimum-word form, is the bearer of a certain grammatical meaning, studies the rules of words in their grammatical forms and functions, change. It defines the circle of related meanings that make up a certain grammatical category. Morphology, expressed by linguistic means, grammatical form, is stable in comparison with lexical and word formation systems, extremely conservative to extraneous influences. Since the morphology of the Azerbaijani language is based on the results of historical processes and is less prone to changes in the system of word forms, the possibilities of using Form options are small, therefore, there is a stagnation in the morphological system of the language. This process is noticeable in the literary language, as well as in the colloquial language. The subject of morphology is the grammatical classes of words, extremely conservative to external influences in relation to lexical and word formation systems. At the present stage of development of the language (synchronous), the morphology of the Azerbaijani language is less prone to changes in the system of word forms, based on the results of historical processes. These changes were due to a decrease in the range of use of form variants and created stability in the morphological system of the language.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: filologiya elmləri doktoru, professor İsmayıl Kazımov tərəfindən çapa tövsiyə olunmuşdur**